# NAXÇIVAN MUXTAR RESPUBLİKASININ
# NAZİRLƏR KABİNETİ

# Q Ə R A R

**çıxarış**

**Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin bəzi qərarlarında dəyişiklik edilməsi haqqında**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2021-ci il 23 dekabr tarixli 409, 410 və 411 nömrəli qərarlarına uyğun olaraq Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 2008-ci il 29 aprel tarixli 46 nömrəli Qərarı ilə təsdiq edilmiş “Penitensiar müəssisələrdə cəza çəkməkdən azad edilmiş şəxslərin Naxçıvan Muxtar Respublikası ərazisində müvəqqəti yaşayış yeri ilə təmin olunma qaydası və həmin müvəqqəti yaşayış yerlərində yaşamaq müddətinin artırılmasının müstəsna halları”nın 9.4-cü bəndində “əlil” sözü “18 yaşınadək əlilliyi müəyyən edilmiş” sözləri ilə əvəz edilsin.

2. Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 2009-cu il 14 mart tarixli 22 nömrəli Qərarı ilə təsdiq edilmiş “Avtovağzal və avtostansiya haqqında Əsasnamə”də aşağıdakı dəyişikliklər edilsin:

2.1. 3.2.4-cü yarımbənddə “arabaların” sözü “təkərli oturacaqların” sözləri ilə və “araba ilə” sözləri “təkərli oturacaqla” sözləri ilə əvəz edilsin;

2.2. 6.3-cü və 6.4-cü bəndlərdə “sağlamlıq imkanları məhdud 18 yaşınadək” sözləri “18 yaşınadək əlilliyi müəyyən edilmiş” sözləri ilə əvəz edilsin.

4. Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 2013-cü il 23 yanvar tarixli 11 nömrəli Qərarı ilə təsdiq edilmiş “Uşaq hüquqlarının həyata keçirilməsinə dair elektron məlumat bankının təşkili və aparılması Qaydası”nın 1.9-cu bəndinin ikinci cümləsində “sağlamlıq imkanları məhdud uşaq” sözləri “18 yaşınadək əlilliyi müəyyən edilmiş şəxs” sözləri ilə, “sağlamlıq imkanları məhdud 18 yaşınadək uşaqların” sözləri “18 yaşınadək əlilliyi müəyyən edilmiş şəxslərin” sözləri ilə əvəz edilsin.

7. Bu Qərar 2022-ci il iyulun 1-dən qüvvəyə minir.

**Naxçıvan Muxtar Respublikasının**
**Baş naziri** **Səbuhi Məmmədov**

Naxçıvan şəhəri, “11” yanvar 2022-ci il

№ 4